# “Vedibasarda görüşənədək”



**Qərbi Azərbaycan ellərindən soydaşlarımız didərgin salınanda üzü Ağrı dağına sarı əzəmətli Vedibasar mahalı da düşmənin deportasiya siyasətinə məruz qaldı. 145 kəndindən yalnız ikisində - Reyhanlı və Dəvəlidə erməni yaşasa da ərazi tamamilə boşaldıldı. Saysız-hesabsız mədəni abidələri, məscidləri və yaşayış üçün digər əhəmiyyətli binaları ilə yanaşı, bütün tarixi də əzəli, əbədi yurd yerlərində qaldı. Düşmən bütün Qərbi Azərbaycan əraziləri kimi, Vedibasarın da əksər abidələrini dağıdıb, buradan azərbaycanlıların qədim izlərini silmək üçün hər şeyə əl atır. Amma unudur ki, tarix millətin qanında, milli mənsubiyyətində, xarakterindədir.**

Bu gün Vedibasar elinin adət-ənənələrini, tarixini təbliğ edib yaşadanlardan biri də illərdir öz cəfakeşliyi ilə bütün çətinliklərə sinə gərən "Vedibasar" qəzetidir. Sərtib İslamoğlunun redaktorluğu ilə nəşr edilən bu mətbu orqan əvvəllər sadəcə Vedibasar əhlinin həyat və məişətini işıqlandırırdısa, bu gün bütöv Azərbaycanı əhatə edir. Bütün ömrünü, məsləyini Qərbi Azərbaycan mətbuatının bir qolu olan "Vedibasar" qəzetinin nəşrinə həsr edən müəllif çox çətinliklərdən keçsə də, bir an belə fikrindən daşınmayıb. İş üslubunu, mövqeyini, məramını məhz keçmiş ənənələrin üzərində qurub. Müəllif bu qəzeti insanların yurd həsrətinə, dərdinə dərman bilir.

Qərbi Azərbaycanın mətbuat tarixi "Lək-lək" jurnalı ilə başlayır. Qədim şəhərimiz İrəvanda 1914-cü ildə Azərbaycan dilində nəşr olunan ilk satirik həftəlik jurnalın beş ay müddətində cəmi 12 sayı işıq üzü görüb. Jurnalın çapı dayandırıldıqdan sonra qələm adamları "Molla Nəsrəddin" jurnalına üz tutublar. Qərbi Azərbaycan mətbuatının zəngin tarixi sonrakı dönəmlərdə "Kommunist", "Zəngi qəzeti", "Qızıl şəfəq", "Qırmızı Basarkeçər", "Vardenis" və "Sovet Ermənistanı" qəzetləri ilə davam etdirilib. Gəmidə oturub, gəmiçi ilə dava edən nankor, gəlmə qonşularımızın bütün qadağa və sıxışdırılma əməllərinə rəğmən, mətbuatın fədailəri qələmlərinə sarılaraq mübarizə meydanında haqq səslərini daim ucaltmışlar.

Təəssüflər ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qərbi Azərbaycan əraziləri boşaldıqdan, soydaşlarımız minillik ata-baba yurdlarından didərgin düşdükdən sonra, o yerləri tərənnüm edən qəzet və jurnallar da müxtəlif məkanlarda fəaliyyət göstərdi. Yurd həsrətini qəlbinə sıxıb, xatirələrin, müşahidələrin, yaşananların işığında qələmi ilə mübarizə aparan insanlardan biri də Sərtib İslamoğlu oldu. Onun redaktorluğu ilə 27 fevral 2003-cü ildən nəşrə başlayan "Vedibasar" qəzetinin məqsədi, məramı hər zaman o yerlərin tarixini, adət-ənənəsini və mədəniyyətini təbliğ etmək olub. Müəllif Azərbaycan dövlətinin apardığı siyasət və Qərbi Azərbaycan İcmasının izində, işıqlı sabahında gördüyü ümidin, inamın arxasınca "bir gün yenidən o yerlərə dönəcəyik və "Vedibasar"ın yeni saylarını məhz əbədi ocaqlarımızda çap edəcəyik" arzusu ilə yaşayır. Ömrünün 70-ci ilində Sərtib İslamoğlu həvəs və maraqla öz fəaliyyətini davam etdirir, Vedibasarda "Vedibasar"ın səhifələrini bəzəyəcək mövzular, məqalələr haqqında düşünür.

Bu günlər Sərtib İslamoğlu bir-birindən fərqli, təzadlı, maraqlı, qürurlu və şərəfli ömür kitabının 70-ci səhifəsini vərəqləyir. Peşəkar jurnalist kimi uzunmüddətli fəaliyyətinə və Qərbi Azərbaycan həqiqətlərinin, milli-mənəvi dəyərlərin təbliği və yayılmasına yönəlik xidmətlərinə görə Sərtib İslamoğlu Mətbuat Şurasının diplomu ilə təltif edilib. Bu, peşəsinin vurğunu olan bir qələm əhlinə, yurd həsrəti ilə yazıb-yaradan ziyalıya verilən yüksək dəyərdir. Azərbaycan mətbuat tarixində öz yeri, dəst-xətti olan "Vedibasar" qəzeti gün gələcək oxucuları ilə qədim yurd yerimiz olan Vedibasarda görüşəcək.

**Ramidə YAQUBQIZI,
"Respublika".**